Ədalət.- 2023.- 1 sentyabr.- S.8.

# Şəhriyar Del Geraninin "Darıxmağın adı" kitabı

**Şair Şəhriyar Del Geraninin imzası oxuculara tanışdır. Onun özünəməxsus yaradıcılıq forması demək olar ki, təkcə həmyaşıdlarının deyil, eləcə də yaşlı nəsilin ədəbiyyat adamlarının diqqətini özünə çəkə bilib. Məhz bu səbəbdəndir ki, Şəhriyarın çap olunan hər bir şeiri müəyyən müzakirələrə səbəb olur.**

Bu günlərdə Şəhriyarın Qanun Nəşriyyatında yeni şeirlər kitabı, yəni "Darıxmağın adı" işıq üzü görüb."Darıxmağın adı" oxucularla xalq şairi, unudulmaz Vaqif Səmədoğlunun sözləri ilə təmasa başlayır. Belə ki, Vaqif Səmədoğlu yazır:

- " Şəhriyar həbsxanaya düşüb azadlığını itirəndə də, həyata düşüb anasını itirəndə də onu ədəbiyyat qazanıb. O, sözün bütün mənalarında tək olmağı bacaran şairdi. Mənim qədər tənhalığı sevən bir adam onun darıxmağına qibtə edirəm. Ən əsası isə o, tənhalığını və darıxmağını ədəbiyyata çevirməyi bacarır..."

Düşünürəm ki, bu təqdimat oxucu önündə açılan qapıdı ... Və bu qapıdan keçən hər kəs Şəhriyarın şeir dünyasında öz istədiyini tapmaqda bir çaşqınlıq yaşamayacaq!

Belə ki, oxucu şerin səsini eşidir, misraları səs kimi görür...Və görüb eşitdiyi səs onu özünün həmsöhbətinə çevirir...Və bu anlaşma da hər iki tərəfin , necə deyərlər ürəyincə, istəyincə olur. Və nəhayət yenə VƏ - şeir də , oxucu da qazanır...Biri oxunduğu üçün, biri isə oxuduğu üçün!.. Bax bu məqamda




mən də səs eşidir və görürəm... O görüb eşitdiyim səs bu misralardı:

***Belə olmalı deyildi, dostum,***
***bunca hündür olmayacaqdı divarlar.***

***İndi mənim qısıldığım küncdən***
***heç kim görünmür.***
***Deyirəm ki, belə olmur...***

*Və yaxud:*

***Sevgi bir məzarlıq yermiş***
***gəzdirərsən bədənində.***
***Hamı- hamı sənə gülər,***
***amma sən***
***əvvəl-axır dəfn edərsən***
***özünü lap əvvəlinə - ana bətninə...***

Bəli, sizə təqdim etdiyim bu şeir, həm də görünən səs nümunələri ilə Şəhriyar Del Geraninin "Darıxmağın adı" barədə qısa tanıtım etdim. Bundan sonrası sizin, yeni oxucuların ixtiyarındadı... Buyurun!..

**Əbülfət Mədətoğlu**